*(Əvvəli ötən sayımızda)*

Bəhlul Danəndəyə bir cavan yaxınlaşır:

- Bəhlul Danəndə, deyirlər siz çox ağıllı olduğunuza görə "danəndə" deyirlər, yəni "ağıllı". Mən də sizi ağıllı saydığım üçün yanınıza gəlmişəm. Mənə bir məsləhət verin. Deyin görüm nə edim ki, varlı adam olum?

- Mənə "Danəndə" deyənlərə ağıllı məsləhət verirəm, "divanə" deyənlərə isə dəli məsləhəti verirəm. Bunu yadından çıxarma. İndi ki, məni Danəndə hesab edirsən, onda sənə məsləhətim budur. Get zibilxanalardan çoxlu mis, alüminium topla. Tezliklə Sovet hökuməti dağılacaq, onları satıb yaxşı varlana bilərsən.

Bir neçə ildən sonra həmin adam yaxşı geyimdə Bəhlul ilə görüşür:

- Ooo.. Bəhlul Divanə, bu sənsən. Sənin məsləhətinlə varlandım. İndi mənim hər şeyim var. Sən elə bir məsləhət ver ki, mən bir qədər də çox varlanım.

- Nə deyirəm ki, verim də. Sən belə elə, get Dağlıq Qarabağda torpaqlar al. Bir azdan oradakı torpaqların qiyməti son dərəcə artacaq. Od qiymətinə olacaq. Hər qarış torpaq üçün insanlar canlarından belə keçəcəklər.

- Düz deyirsən, Bəhlul Divanə, gedim bütün sərvətimi satıb Dağlıq Qarabağda torpaqlar alım. Mən bu məmləkətin ən varlı adamı olacağam.

* * *

İki mülki və bir hərbçi oturub. Bu vaxt bir qadın yaxınlaşır. Birinci mülki şəxs əynindəki paltarı, cibindəki açarları çıxarıb ona verir. Qadın qəzəblə:

- Bu evin açarı deyil, bu xarab maşını özünə saxla, mənə mənzilin açarını ver!

- Buyur.

- Bax belə, bir daha səni görməyim.

- Oldu.

Xanım gedəndən sonra ikinci mülki şəxs soruşur:

- Bu kimdir ki, günün günorta çağı səni soyur?

- Bu mənim günahlarımın cəzasıdır, insan şəkilinə düşüb, məni qarabaqara izləyib cəzalandırır. Beş ildir bu arvadın əriyəm, bu illərdə tüstü təpəmdən çıxır. Məni əcəl kimi qarabaqara izləyir.

- Sənə yazığım gəlir.

Bu vaxt birisi yaxınlaşır və ikinci mülki şəxs dərhal ayağa qalxır. Həmin adam "Müdir" yazılmış kabinetə daxil olur. İkinci mülki şəxs ciblərini eşələyib bütün pullarını bir yerə toplayaraq qorxa-qorxa kabinetə daxil olur və bir azdan həyəcanla kabinetdən çıxır:

- Çox şükür, yaxşı qurtardım.

- Bu kişi kimdir ki, onu görəndə əsirsən, cibini boşaldıb ona verirsən?

- Bu kişi də bizim kollektivin bağışlanılmaz günahlarının cəzasıdır. Bizə qan uddurur.

# YUMORİSTİK SƏHNƏLƏR

Bir müddətdən sonra. Kasıb paltarında həmin cavan Bəhlulla rastlaşır:

- Bu nədir, nə günə düşmüşsən? – deyə Bəhlul ondan soruşur.

- Sənin məsləhətindən bu günə düşmüşəm. Ağıllı məsləhət vermədin. Bütün varımı satıb Dağlıq Qarabağda torpaq sahələri aldım, oranı da ermənilər işğal etdilər. Bütün varım əlimdən çıxdı. Bəs sən necə ağıllısan ki, bu bəlanı görməmişsən.

- Niyə görmürdüm. Birinci dəfə mənə Bəhlul Danəndə dedin, mən də sənə "danəndə" – "ağıllı" kimi məsləhət verdim. İkinci dəfə qudurub mənə Bəhlul Divanə dedin, mən də sənə divanə - dəli kimi məsləhət verdim...

* * *

XX əsrin 20-ci illəri, ata və oğul:

- Oğul, başa düş insan meymundan əmələ gəlib. Biz artıq fırıldaqçı mollaların sözünə inanıb deyə bilmərik insanı Allah yaradıb. Biz indi dahi rəhbərimiz, bütün zəmanələrin şərəfi, vicdanı, xoş gələcəyi olan Lenin ideyalarına inanmalıyıq. Biz artıq yeni düşüncə ilə yaşayıb kommunizm qurmalıyıq. Kommunizm – elə o fırıldaqçı mollaların vəd etdikləri cənnəti bu dünyada yaratmaq deməkdir. Məhsul bolluğu, hər şey müftə, siz cavanlar naznemət içində yaşayacaqsınız.

- Oldu ata, bundan sonra deyəcəyəm, insanı Allah yaratmayıb, o meymundan əmələ gəlib. Amma bir şey də məni düşündürür, bəs meymunu kim yaradıb?

- Onu alimlər hələ tapmayıb, tapanda deyəcəklər.

- Başa düşdüm...

Əsrin axırında, yenə həmin səhnə, personajlar başqa paltarda:

- Oğul, bu axmaq kommunistlərin sözünə aldanma. İnsan meymundan əmələ gəlməyib. İnsanı Allah yaradıb. Bu kommunistlər – kafirlər ürəyimizdən müqəddəs Allahımızı çıxarıblar. Biz artıq yeni düşüncə ilə yaşamalıyıq. O dünya var, cənnət var, cəhənnəm var, qır qazanı var. Günahı olanlar o qır qazanında yanır. Qiyamət var. Hamı öləndən sonra diriləcək. Allah qarşısında hesabat verəcək. Başa düşdün oğul? Bil insanı Allah yaradıb.

- Başa düşdüm, ata. Ancaq bir şey məni düşündürür, bəs Allahı kim yaradıb?

- Küfr danışma, o barədə hələ müqəddəs kitablarda məlumat yoxdur. Deməli o barədə sən də fikirləşmə...

- Başa düşdüm...

Bu vaxt iki qalstuklu şəxs öndən keçir. Hərbiçi qalxıb dərhal onlara hərbi salam verir. Mülki şəxslər ondan soruşur:

- Bunlar kimdir, onlara salam verirsən?

- Bunlar da bizim günahlarımızdır. İnsan şəklinə düşüb qabağımızda bitiblər. Biri rusdur, biri erməni. Verdiyimiz torpaqları qaytarmırlar ki, qaytarmırlar.

* * *

Polis idarəsi: İçəri birisi daxil olur. Polis sual verir:

- Adınız, soyadınız, atanızın adı, təvəllüdünüz, yaşadığınız ünvan?

- Deməli, mən bunları yada salmalıyam... Tələsməyin, bu saat hamısını yada salaram. Bağışlayın mənim yaddaşım tamam pozulub. Gərək bir qədər fikirləşəm. Siz inciməyin, bir qədər fikirləşəndən sonra yadıma düşür.

- Həə.. nə oldu? Beş dəqiqədir fikirləşirsən, hələ adını da yadına sala bilməmişsən. Yox mənim əsəbim tab gətirməyəcək. Ay qız, gəl bundan anket məlumatlarını soruşub vərəqə yaz. Mən gözləyə bilmərəm. Gedim görüm, cinayətin üstünü açа bildilər, ya yox!

Katibə yaxınlaşıb yazmağa başlayır:

- Deməli sənin adın Həsənqulu, atanın adı Hüseynqulu, soy adınsa Məmmədquluyevdir. 1959-cu il təvəllüdlü, ünvanınız: Zərgərpalan küçəsi 9001.

- Elədir. Yadıma düşdü. Sən bunları haradan bilirsən?

- Mən sənin üçüncü arvadın olmuşam. Ünvanı unudub birinci arvadıngilə getdiyinə görə boşanmışıq.

- Ola bilər, deyəsən xatırlayıram.

- Deməli sən mərhumu öldürüb aradan çıxmısan?

- Yadıma düşmür!

- Əlini qandallasınlar, gedək, zindanda yadına düşər. Axır ki səndən intiqam aldım.

O əlləri qandallı çıxanda polis içəri girir.

– Burax getsin. Qatili tapdıq.

– Bu dəfə bəxtin gətirdi.

***(Davamı var)***



***Sənan İBRAHİMOV***